**2012-ci ildə Dövlət Statistika Komitəsinin fəaliyyəti haqqında**

2012-ci ildə dövlət statistika orqanları Nazirlər Kabineti ilə razılaşdırılaraq Dövlət Statistika Komitəsi tərəfindən təsdiq edilmiş statistik işlər proqramının, habelə "2012-ci il üçün metodoloji və məlumat istifadəçiləri ilə iş planı"nın və "İqtisadi təhlil" üzrə iş planlarının tam həcmdə və nəzərdə tutulmuş vaxtda yerinə yetirilməsini təmin etmişlər.

Dövlət Statistika Komitəsinin əsas səyi cəmiyyətin statistik informasiyaya tələbatının maksimum ödənilməsinə, ölkə iqtisadiyyatının idarə edilməsi vəzifələrinin operativ surətdə həll edilməsində statistika orqanlarının fəal iştirakına yönəldilmişdir. Bu məqsədlə statistik metodologiya daha da təkmilləşdirilmiş, yeni statistik müşahidələr təşkil edilmişdir. Beynəlxalq standartların və ən yaxşı xarici təcrübələrin Dövlət Statistika Komitəsinin işində tətbiqinə xüsusi diqqət yetirilmişdir. Statistik məlumatların toplanması, işlənməsi, saxlanması və təqdim olunması sisteminin modernləşdirilməsi davam etdirilmişdir. Statistik məlumatların respondentlərdən elektron formada toplanmasının təşkili üzrə xeyli iş görülmüşdür. BMT-nin AİK, Avrostat və Avropa Azad Ticarət Assosiasiyası tərəfindən həyata keçirilmiş Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin fəaliyyətinin Qlobal Qiymətləndirilməsində verilmiş tövsiyələrin yerinə yetirilməsi diqqət mərkəzində olmuşdur.

2012-ci ildə "2008-2012-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair" Dövlət Proqramının yerinə yetirilməsi başa çatdırılmışdır. İl ərzində Dövlət Proqramının, habelə Dövlət Statistika Komitəsinin icraçı kimi iştirakı nəzərdə tutulmuş digər ("2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair", "Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə (2007-2012-ci illər)", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair", "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə", "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf", "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə", "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün") dövlət proqramlarının yerinə yetirilməsi istiqamətində işlər davam etdirilmiş və 2012-ci ildə icrasının başa çatması planlaşdırılmış 68 (o cümlədən digər dövlət proqramları üzrə 38) tədbir həyata keçirilmişdir. Beləliklə, "2008-2012-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramı" üzrə 5 il ərzində 116 tədbir tam icra olunmuşdur ki, bu da Proqramda nəzərdə tutulan tədbirlərin 100 faiz yerinə yetirilməsinə dəlalət edir. Ümumiyyətlə, Dövlət Proqramı ilə bağlı 2012-ci ildə 30, 5 il ərzində isə 200 iş yerinə yetirilmişdir. Yerinə yetirilən işlər Dövlət Proqramının bütün bölmələrini və yuxarıda sadalanan dövlət proqramlarında Dövlət Statistika Komitəsi əsas icraçı kimi nəzərdə tutulmuş bütün işləri əhatə etmişdir ki, bunların nəticəsində də ölkədə real, xarici, sosial sektorlar və ekologiya statistikası sahəsində statistik müşahidələrin, statistik göstəricilərin və onların metodologiyasının, iqtisadi-statistik təsnifatlar sisteminin, statistik müşahidələrin müasir metodlarının tətbiqinin, dövlət hakimiyyəti orqanlarının hazırladığı statistik informasiya resurslarının inteqrasiyası və uyğunlaşdırılmasının, statistik informasiyaların yığılması, işlənməsi, saxlanması və yayılması sisteminin, statistik informasiyanın istifadəçiləri ilə qarşılıqlı əlaqələrin, beynəlxalq əməkdaşlığın inkişafı və

təkmilləşdirilməsi nəticəsində qabaqcıl beynəlxalq standartlar və tələblər səviyyəsində qurulması təmin olunmuşdur. 23 rayon (şəhər) statistika idarəsi mütərəqqi İKT ilə təchiz olunmuş, müasir iş şəraiti olan binalarla təmin olunmuşdur, Mingəçevir və Sumqayıt şəhər statistika idarələri üçün isə belə binaların tikintisi davam etdirilir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2012-ci ildə fəaliyyətinin əsas istiqamətlərindən birini makroiqtisadi statistika təşkil etmişdir. Milli hesablar statistikası üzrə işlər, onların keyfiyyətinin yüksəldilməsinə, sahə statistikasının məlumatları ilə uyğunluğunun və İƏİT və BVF tələblərinə, metodoloji müvafiqliyinin təmin olunmasına yönəldilmişdir. Milli hesablar sisteminin göstəricilərinin hesablanmasının etibarlılığına xüsusi diqqət yetirilmişdir. İqtisadi fəaliyyət növləri təsnifatının yeni versiyasının milli hesablar və makroiqtisadi göstəricilər statistikası göstəricilərinə tətbiqi başa çatdırılmış və bu sahədə göstəricilərin iqtisadi təhlilinin müasir tələblərə uyğunlaşdırılması məqsədilə sektorlar üzrə hesabların təkmilləşdirilməsi davam etdirilmiş (ev təsərrüfatları, dövlət idarəetməsinin institusional vahidləri və maliyyə korporasiyaları üzrə artıq başa çatdırılmışdır), beynəlxalq təşkilatların milli hesablar statistikası göstəriciləri dəstinə dair yeni tələblərinə uyğun olaraq iqtisadiyyatın sektorları üzrə rüblük hesabların tərtibinə başlanmış, məlumatların daha da təkmilləşdirilməsi məqsədilə “ehtiyat və istifadə” cədvəllərinin illik dövrilikdə qurulmasına başlanılmış və göstəricilərin əhatəliliyi və məlumatların keyfiyyəti artırılmış, yeniləşdirilmiş məlumat mənbələri əsasında aktiv və passivlər balansı göstəricilərinin təkmilləşdirilməsi və əhatəliliyinin genişləndirilməsi həyata keçirilmişdir. Bütün bunlar MHS-2008-in tətbiqinə şərait yaratmışdır. Dövlət Statistika Komitəsi hazırda MHS-2008-in tətbiqi sahəsində MDB ölkələri arasında birinci yerdədir.

Azərbaycan Respublikası Dünya Bankı tərəfindən təşkil edilmiş MDB ölkələrinin ÜDM-nin Beynəlxalq Müqayisələr Proqramının 2011-ci il raundunda iştirak edir. Bu məqsədlə, Dövlət Statistika Komitəsi 2012-ci ildə investisiya malları, tikinti materialları, istehlak malları, qeyri-bazar xidmətləri və mənzil kirayəsi üzrə məlumatlar toplamış və MDB Dövlətlərarası Statistika Komitəsinə göndərmişdir. Həmçinin il ərzində “Xidmət tarifləri üzərində statistika müşahidəsinin təşkili və qiymət indekslərinin hesablanması” və “Dövlət tərəfindən tənzimlənən qiymət və tariflərin hesablanması”na dair metodoloji tövsiyələr hazırlanmışdır.

2012-ci il üçün istehlak qiymətləri indeksinin hesablanmasının təkmilləşdirilməsi məqsədilə istehlak səbətinə daxil olan məhsulların siyahısına yenidən baxılmış və günün tələblərinə cavab verməyən mal və xidmətlər səbətdən kənarlaşdırılmış, əvəzinə isə yeni mal və xidmətlər daxil edilmişdir.

İstehsalçı qiymətləri statistikası üzrə daha keyfiyyətli yekun məlumatların əldə olunması məqsədilə ölkə üzrə hesabata cəlb olunan statistik vahidlərin bazası təkmilləşdirilmiş, bu sahədə fəaliyyət göstərən yeni müəssisələr müşahidəyə daxil edilmiş, sənaye xarakterli xidmətlər və sənaye müəssisələri tərəfindən məhsul istehsalı məqsədilə əldə olunan xammal və materialların qiymət və tarif indeksləri hesablanmışdır.

2012-ci ildə indeks hesablamalarının təkmilləşdirilməsi üzrə işlər davam etdirilmişdir. Bu zaman keçmiş dövrlərin pərakəndə əmtəə dövriyyəsi, kənd təsərrüfatının ümumi məhsulu, mədənçıxarma və emal sənayesinin istehsalı, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, su təchizatı, tullantıların təmizlənməsi və emalına dair indekslər yenidən hesablanmışdır.

Enerji statistikasının təkmilləşdirilməsi istiqamətində də işlər həyata keçirilmişdir. Ümumi sərf edilən enerji məhsulu və enerjinin səmərəliliyini əks etdirən digər göstəricilərin formalaşdırılması ilə yanaşı, ölkənin növbəti enerji balansı işlənib hazırlanmışdır. Fərdi sahibkarlar tərəfindən enerji növlərinin istehsalı və istehlakına dair həyata keçirilmiş müayinə materiallarından milli enerji balansının son istehlak sektorunda fərdi sahibkarlar üzrə istehlakın əks etdirilməsində istifadə edilmişdir ki, bu da enerji məhsullarının istehsalı və istehlakı haqqında statistik məlumatların tam əhatəliliyinin təmin edilməsinə imkan vermişdir.

Metodoloji sahədə əsas diqqət makroiqtisadi statistikanın, xidmət, kənd təsərrüfatı və ekologiya, qiymət, sənaye, ticarət, əhali statistikasının, iqtisadi təsnifatların və statistik təlimatların təkmilləşdirilməsinə və inkişafına yönəldilmiş işlərə həsr edilmişdir ki, bu da son nəticədə ölkədə istifadə olunan statistik metodologiyanın beynəlxalq standartlara və metodologiyaya uyğunlaşdırılmasının ayrılmaz hissəsi hesab edilir. İl ərzində Komitə tərəfindən ümumilikdə 100 metodoloji iş yerinə yetirilmişdir ki, onlardan da 73-ü hesabat formalarının tərtib olunmasına, 27-si isə müayinələrin keçirilməsinə, hesablamaların aparılmasına, göstəricilər sisteminin tərtib olunmasına və digər məsələlərə həsr olunmuşdur. Metodoloji işlər əsasən aşağıdakı mövzuları əhatə etmişdir: "Ümumi daxili məhsulun istehsal üsulu ilə hesablanması", "Təbii ehtiyatların Milli Hesablar Sisteminin prinsiplərinə uyğun uçotu", "Beynəlxalq müqayisələrin aparılması üçün təmsilçi-istehlak mallarının müşahidəsi və orta illik qiymətlərin hesablanması", "Dövlət tərəfindən tənzimlənən qiymət və tariflərin hesablanması", "Xidmət tarifləri üzərində statistika müşahidəsinin təşkili və qiymət indeksinin hesablanması", "Fərdi sahibkarlar və ev təsərrüfatları tərəfindən istehlak olunan enerjinin həcminin (müşahidə olunmayan hissəsinin) müəyyənləşdirilməsi", "Mədəniyyət müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi və bu sahədə statistik müşahidənin aparılması", "Təhsillə əhatə olunmanın xalis və ümumi əmsallarının hesablanması" haqqında və digər metodoloji göstərişlər, "Qeyri-ərzaq mallarının qiymətlərinin müşahidəsi", "Əhaliyə göstərilən pullu xidmətlərin qiymət və tariflərinin müşahidəsi", "İşçilərin peşə və vəzifələri, əmək haqqı və işlədikləri vaxt", "Əhalinin məşğulluğu", "Şəbəkə (maye) qazından istifadə", "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə yük daşınmasının tarifləri", "Ümumi istifadədə olan boru kəməri nəqliyyatı ilə qaz nəqli tarifləri", "Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında süd sağımı", "Yarmarka və kənd təsərrüfatı məhsulları bazarları", "Mənzil-kommunal təsərrüfatı üzrə həyata keçirilən islahatların öyrənilməsi", "Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə", "Kənd təsərrüfatında işçi qüvvəsinin öyrənilməsi", "Əmək şəraitinin vəziyyəti, ağır və zərərli əmək şəraitində işə görə güzəşt və kompensasiyalar", "Əməkçi miqrantların sayı və tərkibi", "Haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə xarici ölkələrə göndərilən Azərbaycan Respublikası vətəndaşlarının sayı və tərkibi", "Kənd təsərrüfatında sudan istifadənin intensivliyi", "Meşə (oduncaq) buraxılışı, meşəyə xidmət tədbirləri və meşədən əlavə istifadə", "Meşələrin mühafizəsi və meşə təsərrüfatı işlərinin aparılması", "Müalicə-profilaktika müəssisəsinin fəaliyyəti", "Uşaqlara tibbi xidmətin göstərilməsi", "Tibb müəssisələrinin stasionar fəaliyyəti", "Qeyri-dövlət müalicə-profilaktika müəssisələrinin şəbəkəsi, fəaliyyəti və kadrları" və bir sıra digər rəsmi statistika hesabatı formalarının tərtib olunmasına dair təlimatlar hazırlanaraq təsdiq olunmuş və təcrübədə istifadəsinə başlanmışdır. Göstərilənlərdən əlavə, hesabat ilində statistikanın bütün fəaliyyət

istiqamətlərində keyfiyyətin idarə edilməsi sisteminin sürətləndirilməsi və təkmilləşdirilməsi məqsədilə proseslərin idarə olunması standartları və xəritəsi yenidən işlənərək təsdiq olunmuş və istifadəsinə başlanmışdır.

Statistik müşahidələrin təkmilləşdirilməsi, rəsmi statistika məlumatlarının keyfiyyətinin artırılması və onun beynəlxalq müqayisəliliyinin təmin olunması məqsədilə metodoloji materialların işlənməsi ilə yanaşı, rəsmi statistika hesabatlarının təkmilləşdirilməsi və yeniləşdirilməsi də diqqət mərkəzində olmuşdur. İl ərzində 4 yeni rəsmi statistika hesabatı forması təsdiq edilmiş, 8 hesabat forması ləğv edilmiş və 56 hesabat formasının göstəricilərində dəyişikliklər edilmişdir. Respondentlərə düşən statistika yükünün azaldılması istiqamətində aparılan işlərin nəticəsində rəsmi statistika hesabatları 4 ədəd azalaraq 2013-cü il yanvarın 1-i vəziyyətinə 275 ədəd olmaqla, onlardakı göstəricilərin sayı 122282, o cümlədən statistika orqanları tərəfindən icmallaşdırılan rəsmi statistika hesabatları 162 ədəd və onlardakı göstəricilərin sayı 40215 olmuşdur.

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 1-ci maddəsinin 1.0.22-ci bəndinin icrasını təmin etmək məqsədilə Dövlət Statistika Komitəsi tərəfindən təsdiq olunan texniki normativ hüquqi aktların (dövlət statistika müşahidələrinin formaları və onların doldurulmasına dair göstərişlər, statistik göstəricilərin formalaşdırılması və hesablanması qaydaları, dövlət statistika müşahidələrinin təşkil edilməsinə və aparılmasına dair təlimatlar, idarədaxili hesabat formaları və onların doldurulmasına dair göstərişlər) Ədliyyə Nazirliyində yaradılmış Azərbaycan Respublikasının Hüquqi Aktlarının Dövlət Reyestrində qeydiyyata alınması istiqamətində işlər təşkil olunmuş və il ərzində 56 normativ hüquqi akt Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir.

Hesabat dövründə Dövlət Statistika Komitəsi tərəfindən istehsal olunan statistik məlumatların istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə müqayisəliliyini təmin etmək məqsədilə milli təsnifatlar sisteminin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması işləri davam etdirilmişdir. İl ərzində "Məhsul Növləri Təsnifatı ilə xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının həmahəng sistemi arasında", "Məhsul Növləri Təsnifatı ilə Beynəlxalq Standart Ticarət Təsnifatının dördüncü versiyası arasında" və "Xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının həmahəng sistemi ilə Beynəlxalq Standart Ticarət Təsnifatının dördüncü versiyası arasında" keçid təsnifatları ("açarları") işlənərək müvafiq qaydada təsdiq edilmiş və istifadəçilərin ixtiyarına verilmişdir. Eyni zamanda, təsnifat istifadəçilərinin işini yüngülləşdirmək məqsədilə "Məhsulun (mal və xidmətin) statistik təsnifatı"na izahların 2-ci cildi hazırlanmış və təcrübədə istifadəsinə başlanmışdır. Təsnifatların hazırlanması və təcrübədə tətbiqi sahəsində Dövlət Statistika Komitəsinin işi MDB ölkələri arasında Rusiya Federasiyası və Qazaxıstanın statistika orqanlarından sonra üçüncü yerdədir.

Statistik müşahidələrin, o cümlədən başdan-başa və seçmə qaydada hesabatların toplanmasının, müayinələrin keçirilməsinin əsasını təşkil edən müşahidə obyektlərinin məcmusuna dair Statistik vahidlərin dövlət registrinin təşkili sahəsində işlər davam etdirilmişdir. İl ərzində hüquqi və fiziki şəxslərin yaradılması və ləğvi barədə Vergilər Nazirliyindən daxil olmuş məlumatlar əsasında Statistik vahidlərin dövlət registrinin aktuallaşdırılması və onun statistik işlər üçün aktual vəziyyətdə saxlanması istiqamətində

müntəzəm işlər həyata keçirilmişdir. 2013-cü il yanvarın 1-i vəziyyətinə SVDR-də statistik vahidlərin sayı 511 mindən, əhali təsərrüfatlarının sayı isə 850 mindən çox olmuşdur.

Dövlət Statistika Komitəsinin işində seçmə müayinələrin təşkili və keçirilməsi hesabat dövründə də aktual olaraq qalmışdır. Belə ki, 2012-ci il ərzində "Kənd təsərrüfatında işçi qüvvəsinin öyrənilməsi", "2012-ci il yanvar ayının 1-i vəziyyətinə ölkə ərazisində mal-qara və quşların tam uçotu", "2012-ci il yanvarın 1-i vəziyyətinə ölkə ərazisində cins mal-qara və quşların uçotu", "Mal-qara və quşlara yemlərin məsrəfi", "Fərdi sahibkar, ailə və ev təsərrüfatlarında süd sağımı", "Fərdi sahibkar, ailə və ev təsərrüfatlarında yumurta istehsalı", "İribuynuzlu mal-qaranın çəki artımının müəyyən edilməsi", "2012-ci il iyunun 1-i vəziyyətinə ölkə ərazisində kənd təsərrüfatı bitkiləri əkinlərinin qəti uçotu", "Azərbaycanda əhaliyə göstərilən mənzil-kommunal xidmətlərinin səviyyəsinin ölçülməsi və bu sahədə həyata keçirilən islahatların öyrənilməsi", "Gündüz ümumtəhsil məktəblərinin qış mövsümünə hazırlığı, maddi-texniki bazası və pedaqoji kadrlarla təminatı", "Ev təsərrüfatlarında əhalinin iqtisadi fəallığı", "Ölkə sərhədlərini keçən Azərbaycan və xarici ölkə vətəndaşları", "İşçilərin peşə və vəzifələr üzrə orta aylıq əmək haqqı və işlədikləri vaxt", "Qaçqın və məcburi köçkün əhalinin həyat şəraitinin dəyişməsi", "Körpə və beş yaşa qədər uşaq ölümü hallarının qeydiyyatı vəziyyəti", "2012-ci ildə mövcud ev təsərrüfatları şəbəkəsi üzrə təmiz su təchizatının müntəzəmliyi", "Məktəblərdə davamiyyət səviyyəsi", "Əhalinin vaxt büdcəsindən istifadəsi", "Ev təsərrüfatlarında İKT-dən istifadə", "Ərzaq, qeyri-ərzaq və qarışıq mallar yarmarkalarında və kənd təsərrüfatı məhsulları bazarında malların satışı", "Hesabatlarda məlumatların təhrif edilməsi halları haqqında mütəxəssis rəyinin öyrənilməsi", "Fərdi sahibkar (fiziki şəxs) tərəfindən enerji növlərinin istehlakı və istehsalı" mövzusunda 22 müayinə keçirilmişdir ki, bu da 2011-ci ildə təşkil edilmiş statistik müayinələrdən 2 dəfəyə qədər çoxdur.

Müasir dövrdə statistika orqanlarının əsas vəzifələrindən biri cəmiyyətin müxtəlif təbəqələrinin statistikaya olan tələbatının maksimum ödənilməsinin, metodologiyanın şəffaflığının və statistik müşahidələrin nəticələrinin geniş şəkildə təqdim olunmasının təmin edilməsindən ibarətdir. Bu məqsədlə, il ərzində bütün istifadəçilərin sosial, iqtisadi, demoqrafik və ekoloji vəziyyət haqqında tam, düzgün və vaxtında olan statistik məlumatlarla təmin olunmasına xüsusi fikir verilmişdir. Bu işlər arasında iqtisadi təhlil işləri xüsusi yer tutur. Hesabat dövründə ölkənin sosial-iqtisadi inkişafına dair makroiqtisadi göstəricilər müntəzəm olaraq müxtəlif nəşrlərdə (statistik bülletenlərdə, statistik məcmuələrdə və kitabçalarda, mətbu-məlumatlarda, veb-səhifələrdə) dərc olunan təhlili materiallarda öz əksini tapmışdır. Nazirlər Kabinetinin qərarlarında nəzərdə tutulmuş iqtisadi və təhlil işlərinin hazırlanması diqqət mərkəzində olmuşdur. Nazirlər Kabinetinin "2013-cü il dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin Azərbaycan Prezidentinə vaxtında təqdim olunması barədə" 2012-ci il 26 yanvar tarixli, 17s nömrəli sərəncamının 3-cü bəndinə uyğun olaraq, Dövlət Statistika Komitəsi 2012-ci ildə ölkənin orta müddətli iqtisadi və sosial inkişaf proqramını dəqiqləşdirmək üçün 2011-ci ilin ilkin statistik məlumatlarını İqtisadi İnkişaf və Maliyyə nazirliklərinə və növbəti büdcə ili və gələn üç il üçün ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının, dövlət büdcəsi layihəsinin və toplu maliyyə balansının hazırlanması üçün zəruri statistik məlumatları mütəmadi olaraq, İqtisadi İnkişaf, Maliyyə və Vergilər nazirliklərinə və digər aidiyyəti təşkilatlara, Azərbaycan

Respublikası Baş nazirinin 24 noyabr 2011-ci il tarixli, 14/14-82 nömrəli tapşırığına uyğun olaraq, Dövlət Statistika Komitəsinin 2011-ci ildə gördüyü işlər barədə ətraflı hesabat hazırlanaraq Nazirlər Kabinetinə, Nazirlər Kabinetinin 2 mart 2009-cu il tarixli, 48s nömrəli sərəncamına uyğun olaraq, "2008-2012-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramı" üzrə 2011-ci ildə görülmüş işlər haqqında hesabat hazırlanaraq ölkə Prezidentinə və Nazirlər Kabinetinə təqdim edilmişdir.

İl ərzində ümumilikdə Dövlət Statistika Komitəsinin Aparatı və onun yerli statistika orqanları tərəfindən 1562 təhlili məruzə, 83 adda ekspres-məlumat və 74 adda mətbu-məlumat hazırlanmış, bir sıra təhlili məruzələrdə ölkənin məlumatlarının dünyanın və MDB-nin digər ölkələrinin məlumatları ilə müqayisəsi verilmişdir. Təhlili materialların hazırlanmasında Dövlət Statistika Komitəsinin məlumatları ilə yanaşı, digər rəsmi statistik məlumat istehsalçılarının məlumatlarından da istifadə edilmişdir. Hazırlanan məruzələrlə ölkənin sosial-iqtisadi inkişafı, ümumi daxili məhsul istehsalı və onun istifadəsi, yerli özünüidarəetmə orqanlarının daxilolmaları və büdcə vəsaitlərinin istifadəsi, sənayedə istehsal resurslarından istifadə, sənayenin və inşaat kompleksinin inkişafı, sənayenin hasilat bölməsi, inşaat kompleksinin və yeni istehsal və xidmət obyektlərinin istifadəyə verilməsi, qeyri-neft sektorunda məhsul və xidmətlərin istehsalı və onlardan istifadə, yemçiliyin inkişafı, mineral gübrələrdən istifadə, istehlak bazarında qiymətlərin dəyişməsi, xarici ticarət əlaqələri, pərakəndə əmtəə dövriyyəsi, büdcədən maliyyələşdirilən müəssisə və təşkilatlarda istifadə edilmiş elektrik və istilik enerjisi, təbii qaz, su və rabitə xidmətləri, enerji məhsullarının istifadəsi, boşanma halları, yeni iş yerlərinin yaradılması, pambığın istehsalı, satışı və emalı, ölkədə sosial təminat, informasiya və kommunikasiya texnologiyalarından istifadə, dəmiryolu nəqliyyatı infrastrukturunun inkişafı, əmək bazarının vəziyyəti, məktəbəqədər təhsil müəssisələrinin fəaliyyəti, əhalinin sağlamlığı, sağlamlıq imkanları məhdud olan şəxslərin iqtisadi əmək fəaliyyətinə cəlb olunması şərtləri, sənaye, tikinti, nəqliyyat və rabitə müəssisələrində əmək şəraitinin vəziyyəti, əlverişsiz əmək şəraitində işləməyə görə güzəşt və kompensasiyaların verilməsi, ətraf mühitin vəziyyəti, narkotik vasitələrlə bağlı cinayətlər və bir sıra digər aktual məsələlər əhatə edilmişdir. Göründüyü kimi, təhlili materiallar ölkənin xarici iqtisadi əlaqələrini, maliyyə vəziyyətini, real bölməsini, sosial sahəsini, demoqrafik vəziyyətini əhatə etmişdir.

Dövlət idarəetmə orqanları, beynəlxalq təşkilatlar, statistiklər, iqtisadçılar, elmi işçilər, mütəxəssislər üçün nəzərdə tutulmuş ölkənin inkişafı haqqında statistik məlumatları özündə əks etdirən statistik bülletenlərin hazırlanması hesabat dövründə də davam etdirilmişdir. İl ərzində yığılmış məlumatlar əsasında 51 adda (5,9 min nüsxə) statistik bülleten hazırlanaraq istifadəçilərə çatdırılmışdır.

Hüquqi və fiziki şəxslərdən statistik məlumatların toplanması, onun işlənməsi və saxlanması Nazirlər Kabineti ilə razılaşdırılaraq təsdiq olunmuş "Statistik işlər proqramı"na uyğun həyata keçirilmişdir. 2012-ci ildə statistik işlər proqramına uyğun olaraq hüquqi və fiziki şəxslərdən toplanmış və ölkənin digər statistik məlumat istehsalçılarından alınmış statistik məlumatlar əsasında dərc olunması üçün müxtəlif kəsimlərdə məlumatların hazırlanması həyata keçirilmiş, hər ay istər ölkə üzrə, istərsə də ayrı-ayrı rayon və şəhərlər üzrə "Sosial, iqtisadi inkişaf"a dair məruzələr hazırlanaraq istifadəçilərə göndərilmişdir. Bu məruzələrdə ümumi daxili məhsulun istehsalı və istifadəsi, sənayenin, kənd təsərrüfatının, tikintinin, nəqliyyatın inkişafı, ölkənin maliyyə

vəziyyəti, dövlət büdcəsinin icrası, əhalinin pul gəlirləri və xərcləri və bir sıra digər göstəricilər öz əksini tapmışdır.

Dövlət Statistika Komitəsinin fəaliyyətində əsas yerlərdən birini də istifadəçilərin statistik nəşrlərlə təmin edilməsi tutur. Ölkədə baş verən dəyişikliklərə uyğun olaraq, 2012-ci ildə nəşr olunan məcmuələrin məzmununda dəyişikliklər aparılmış, onların tərkibinə yeni bölmələr və göstəricilər əlavə edilmiş, köhnəlmiş (əhəmiyyətini itirmiş) anlayışlar, təriflər və göstəricilər çıxarılmışdır. Hesabat dövründə beynəlxalq standartlara cavab verən "Azərbaycanın statistik göstəriciləri", "Azərbaycanın regionları", "Azərbaycanın demoqrafik göstəriciləri", "Azərbaycanın milli hesabları", "Azərbaycanın energetikası", "Azərbaycanda qadınlar və kişilər", "Azərbaycanda uşaqlar", "Azərbaycanda səhiyyə, sosial təminat və mənzil şəraiti", "Azərbaycanda təhsil, elm və mədəniyyət", "Azərbaycanda informasiya cəmiyyəti", "Azərbaycanda kiçik sahibkarlıq", "Azərbaycanda telekommunikasiya və poçt", "Əmək bazarı", "Azərbaycanın xarici ticarəti", "Azərbaycanda turizm və xidmət", "Azərbaycanda qiymətlər" və digər məzmunlu 30-dan çox adda müxtəlif sahələrə dair illik məcmuələr nəşr etdirilmişdir.

Statistik məlumatların müvəffəqiyyətlə yayılmasında Dövlət Statistika Komitəsində fəaliyyət göstərən kitabxana da böyük rola malikdir. Kitabxananın fonduna beynəlxalq təşkilatlar və dünya ölkələrinin statistika xidmətləri tərəfindən buraxılan məhsullar müntəzəm olaraq daxil olur. Hazırda Komitə 7443 cild kitabxana fonduna və 4797 nüsxə dövrü nəşrlərə malikdir. 2012-ci il ərzində kitabxananın xidmətindən 2615 nəfər oxucu istifadə etmişdir.

2012-ci ildə Dövlət Statistika Komitəsinin internet səhifəsində məlumat bazasının aparılması davam etdirilmişdir. Hazırda məlumat bazası özündə 10 minə yaxın cədvəli, məruzəni, təhlili materialları, metodoloji materialları, cari göstəricilər də daxil olmaqla, əsas sosial-iqtisadi göstəricilər üzrə ən yeni məlumatların qrafiklərini, xarici ölkələrin statistikasına dair məlumatları, müntəzəm əsasda yeniləşdirilən əsas makroiqtisadi göstəricilər üzrə illik məlumatların dinamika sıralarını əks etdirir. İnternet şəbəkəsində Dövlət Statistika Komitəsinin internet saytı müntəzəm olaraq yeniləşdirilir. 01.01.2013-cü il vəziyyətinə Dövlət Statistika Komitəsinin serverində yerləşən məlumatların ümumi həcmi 110 GB-dır, ondan məlumatlar bazası 6 GB, statistik proqram təminatı 60GB, internet saytı 3GB, sənəd dövriyyəsi isə 40 GB təşkil etmişdir. 2012-ci ildə Dövlət Statistika Komitəsinin internet səhifəsindən hər gün orta hesabla 1310 istifadəçi bəhrələnmişdir və hər gün baxılan səhifələrin orta sayı 6187-yə çatmışdır ki, bu da 2011-ci ildəkindən təqribən 2 dəfə çoxdur.

Məlumat istifadəçiləri ilə iş sahəsində kütləvi informasiya vasitələri də mühüm əhəmiyyət kəsb edir. Hesabat dövründə statistik məlumatların dərc olunması və yayılmasında informasiya vasitələrindən, radio və televiziya kanallarından geniş istifadə edilmişdir. Hər rübün yekunu üzrə ölkənin rəsmi iqtisadi-statistik göstəricilərinə dair kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə mətbuat konfranslarının keçirilməsi davam etdirilmişdir. 2012-ci il ərzində statistika orqanları tərəfindən qəzet və jurnallarda 123 məqalə və 40 mətbu-məlumat dərc etdirilmişdir.

Göstərilənlərdən əlavə, rəsmi statistika istifadəçilərinin statistik məlumatlara olan tələbatının öyrənilməsi və ödənilməsinin qiymətləndirilməsi məqsədilə Dövlət Statistika Komitəsinin veb-səhifəsində "onlayn" rejimdə istifadəçilər üçün sorğu anketi yerləşdirilmişdir. İstifadəçilərlə işin bu qaydada təşkili, onların tələbatının daha operativ

qaydada öyrənilməsinə və ödənilməsinə imkan vermişdir. Veb-səhifədə Dövlət Statistika Komitəsinin fəaliyyətini əks etdirən xəbərlər bölməsi daima yeniləşdirilir. Bu bölmədə Dövlət Statistika Komitəsi yeni hazırlanmış məcmuələr və metodoloji işlər haqqında, Komitənin mütəxəssislərinin iştirakı ilə statistika sahəsində əsas beynəlxalq hadisələrə dair məlumatlar yerləşdirilmişdir.

Dövlət Statistika Komitəsinin fəaliyyətində keyfiyyətin idarə edilməsi sisteminin tətbiqi sahəsində işlər davam etdirilmişdir. Bunun nəticəsində statistika orqanlarının fəaliyyətinin standartlaşdırılması, istehsal mexanizminin vahid istiqamətdə formalaşdırılması və idarəetmədə xətaların minimuma endirilməsinə nail olunmuşdur.

2012-ci ildə Dövlət Statistika Komitəsi rəsmi statistikanın təkmilləşdirilməsi və bazar iqtisadiyyatı şəraitinə cavab verən statistik potensialın gücləndirilməsi üçün zəruri olan müasir statistik metodologiyanın və beynəlxalq standartların mənimsənilməsi məqsədilə beynəlxalq təşkilatların və bir sıra xarici ölkələrin statistika xidmətləri ilə əməkdaşlığı davam etdirmişdir. Əməkdaşlıq çərçivəsində Dövlət Statistika Komitəsinin BMT və onun regional iqtisadi komissiyalarının, Avropa İttifaqının, BVF, BƏT, YUNİSEF, YUNESCO, Dünya Bankı, Asiya İnkişaf Bankı, İƏT və bir sıra digər beynəlxalq təşkilatların və dünya ölkələrinin statistika xidmətləri ilə, Avrostat və MDB Dövlətlərarası Statistika Komitəsi ilə əlaqələri genişlənmişdir. Beynəlxalq təşkilatların və xarici ölkələrin statistika xidmətləri ilə əməkdaşlıq qarşılıqlı anlaşmaya dair bağlanmış müqavilələr, razılaşmalar, memorandumlar əsasında həyata keçirilmişdir. Əvvəlkilərə əlavə olaraq 6 mart 2012-ci il tarixində “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Ümumi hüququn hüquqi şəxsi – Gürcüstan Milli Statistika Xidməti arasında statistika sahəsində əməkdaşlıq haqqında” Anlaşma Memorandumu imzalanmışdır. Avropa Qonşuluq Siyasəti çərçivəsində Azərbaycan və Avropa İttifaqı arasında qəbul olunmuş Fəaliyyət Planında statistikaya həsr olunmuş tədbirlərin yerinə yetirilməsi müəyyənləşdirilmiş qaydada həyata keçirilmiş, 2012-ci ildə yerinə yetirilmiş işlərə müntəzəm olaraq diqqət yetirilmiş, İqtisadi İnkişaf və Xarici İşlər nazirlikərinə bununla bağlı hesabat təqdim edilmişdir.

Avropa Qonşuluq Siyasəti çərçivəsində 2009-cu ilin noyabr ayından icrasına başlanmış birinci Tvinninq proqramının 2012-ci ilin fevral ayında başa çatması ilə əlaqədar olaraq, “Statistik keyfiyyətin idarəolunması sistemi”, “Metaməlumatlar”, “Coğrafi informasiya sistemi”, “Gəlirlər və yaşayış səviyyəsi” və “Əlillik və şikəstlik statistikası”nı əhatə edən ikinci Tvinninq proqramı üzrə əsaslandırma oktyabr ayında Avropa Komissiyasının nümayəndələri tərəfindən hazırlanaraq müsabiqə (tender) elan etmək üçün Avropa Komissiyasına təqdim edilmişdir. Büdcə yardımı proqramı daxilində, Nazirlər Kabinetinin 16 dekabr 2009-cu il tarixli, 191 nömrəli qərarına uyğun olaraq, statistika ilə bağlı “Avropa Komissiyasının Azərbaycan Respublikasına Energetika Sahəsində İslahatlara Dəstək Proqramı”nda nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi işləri davam etdirilmişdir. Müvafiq sahələrdə işlərin təkmilləşdirilməsi məqsədilə TAİEX (Texniki Yardım və İnformasiya Mübadiləsi) proqramı çərçivəsində “Avropa ölkələri üçün uyğunlaşdırılmış vaxtdan istifadə müayinəsinin metodologiyası” və “Statistikada Coğrafi İnformasiya sisteminin yaradılması” üzrə ekspert səfərləri təşkil edilmişdir.

Hesabat ilində TİKA proqramı çərçivəsində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Türkiyə Statistika İnstitutu arasında əlaqələr davam etdirilmiş, ev təsərrüfatlarında yaşayış şəraiti, işçi qüvvəsi və informasiya texnologiyaları statistikası

sahəsində qarşılıqlı görüşlər həyata keçirilmişdir. Dövlət Statistika Komitəsinin mütəxəssisləri keyfiyyətin təmin olunması, metaməlumatlar və GSBPM-in (Statistik Biznes Prosesin Ümumi Modelinin) tətbiqi sahəsində Türkiyə Statistika İnstitutunun təcrübəsini öyrənmişlər.

Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin müdiri N.Süleymanov tərəfindən hazırlanmış "Azərbaycanın milli hesablar statistikası göstəricilərinin təkmilləşdirilməsi və onun həyata keçirilməsi üzrə tədbirlər planına dair" məruzə Avropa İqtisadi Komissiyasının bülletenində, Keyfiyyətin idarə olunması və informasiya texnologiyaları şöbəsinin müdiri Y.Yusifov tərəfindən hazırlanmış "MDB məkanında nəqliyyat statistikasına olan yeni tələblər" adlı məqalə isə Rusiya Federasiyasında nəşr olunan "Statistikanın məsələləri" jurnalında dərc edilmişdir.

Dövlət Statistika Komitəsinin mütəxəssisləri 6 beynəlxalq təşkilatda statistika sahəsində işçi və ya ekspert qrupunun üzvü kimi öz fəaliyyətini davam etdirmişdir.

Respondentlərə düşən "statistik yükün" azaldılmasına və istifadəçilərin sorğularının yerinə yetirilməsi müddətlərinin ixtisara salınmasına yönəldilmiş statistik məlumatların toplanması, işlənməsi, saxlanması və təqdim edilməsi sisteminin, ümumilikdə Dövlət Statistika Komitəsinin məlumat hesablama sisteminin inkişafı və modernləşdirilməsi işi davam etdirilmişdir. Belə ki, Nazirlər Kabinetinin 25.06.2012-ci il tarixli, 142 saylı "Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin "Elektron hökumət" portalında yerləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə qərarının tələblərinə uyğun olaraq, "2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı"nın və "2013-cü il üçün statistik işlər proqramı"nın layihələri "Elektron hökumət" portalında yerləşdirilmişdir. Portal vasitəsi ilə əhaliyə elektron informasiya xidmətləri göstərilməsi işi də davam etdirilmişdir. Bu xidmətlər sırasında rəsmi statistik hesabatların təqdim edilməsi, statistik məlumatların buraxılış təqviminin və mətbu məlumatların yayım təqviminin təqdim edilməsi, statistik məlumatların (göstəricilərin) verilməsi, statistik nəşrlərin (kitabların) onlayn satışı və statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə inzibati cərimələrin internet vasitəsilə ödənilməsi kimi xidmətlər də vardır.

Rəsmi statistik hesabatların təqdim edilməsi üzrə xidmət artıq "online" (real vaxt) rejimdə həyata keçirilir. Bunun üçün müvafiq proqram sistemi hazırlanmış, mərkəzləşmiş şəkildə təqdim edilən hesabatlardan başqa digər bütün hesabat formaları üçün proqram vasitələrinin sınaq istismarının təşkili işləri başa çatdırılmış və hesabat formaları üzrə proqram vasitələrinin istismarına başlanmışdır. Rəsmi statistika hesabatlarının elektron sənəd formasında toplanması sahəsində Dövlət Statistika Komitəsi MDB ölkələri arasında öncül yerlərdən birini, "online" (real vaxt) rejimdə təqdim olunması üzrə isə birinci yeri tutur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 04.09.2012-ci il tarixli, 189 saylı qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarə edilməsinə dair tələblər" təmin olunmaqla, Dövlət Statistika Komitəsinin **"stat.gov.az**" adlı yeni internet səhifəsi yaradılaraq "gov.az" domen zonasında qeydiyyata alınmışdır. 2013-cü ildən başlayaraq informasiya ehtiyatları yeni səhifə vasitəsi ilə istifadəçilərə çatdırılacaqdır.

İl ərzində inzibati binaları yeni istifadəyə verilən və ya əsaslı təmir işləri aparılan 15 rayon (şəhər) statistika idarəsində (şöbəsində) məlumat şəbəkələri yenidən qurulmuş və məlumatın mübadilə imkanlarının artırılması ilə yanaşı, statistika sistemində çalışan bütün mütəxəssislərin sürətli internetə çıxışı təmin olunmuşdur.

Ölkə Prezidentinin 04.09.2012-ci il tarixli "İdarələrarası elektron sənəd dövriyyəsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Fərmanına uyğun olaraq, Dövlət Statistika Komitəsi sistemində tətbiqi həyata keçirilən elektron sənəd dövriyyəsi sisteminin imkanları artırılmış, yeni nəzarət mexanizmləri həyata keçirilərək məlumat mübadiləsinin sürətinin yüksəldilməsi və icraya nəzarətin təşkili işlərinə xüsusi diqqət yetirilmişdir. Tətbiq edilmiş sistemin üstünlüklərini nəzərə alaraq, Komitənin veb səhifəsində "E-sənəd dövriyyəsi sistemi" bölməsi yaradılmış digər dövlət idarəetmə orqanlarının da bu sistemə qoşula bilməsi imkanları yaradılmışdır.

Bu sahədə qarşıda duran vəzifələri daha keyfiyyətli yerinə yetirmək və texniki bazanı gücləndirmək məqsədilə 2012-ci ildə 4 ədəd SERVER, mərkəzi aparatın və yerli statistika orqanlarının texniki imkanlarının artırılması üçün 131 ədəd kompüter, sənəd dövriyyəsi sisteminin bütün funksiyalarının tətbiqinə nail olmağa imkan verən, geniş parametrlərə malik 25 ədəd çap, skaner və surətçıxarma qurğusu və avadanlıqlar alınaraq quraşdırılmışdır.

Hesabat dövründə Dövlət Statistika Komitəsinin Aparatına və yerli statistika orqanlarının ünvanlarına vətəndaşlardan 301 (o cümlədən şikayət xarakterli 17) ərizə daxil olmuşdur. Daxil olmuş ərizələrin hər birinə müəyyənləşdirilmiş qaydada cavab verilmiş və müvafiq tədbirlər görülmüşdür.

Keçən il kadr işlərinin təkmilləşdirilməsinə, dövlət statistika orqanlarının iş şəraitinin yaxşılaşdırılmasına böyük diqqət yetirilmişdir. Bilik səviyyələrini artırmaq məqsədilə beynəlxalq təşkilatlar tərəfindən təşkil edilmiş kurs, seminar və digər tədbirlərdə 96 nəfər mütəxəssis, o cümlədən Keyfiyyətin idarə olunması və informasiya texnologiyaları şöbəsinin müdiri Y.Yusifov BMT Statistika Komissiyasının 43-cü sessiyasının işində iştirak etmişdir. Dövlət Statistika Komitəsində kadrların sistemli və fasiləsiz öyrədilməsi də diqqət mərkəzində olmuşdur. Bu məqsədlə təşkil edilmiş seminarlarda Aparatın və yerli statistika orqanlarının 496 mütəxəssisi öz ixtisas və biliklərini artırmışdır.

2012-ci ildə yerli statistika orqanlarının işçilərinin iş şəraitinin yaxşılaşdırılması məqsədilə, Qobustan, Gədəbəy, Göyçay, Daşkəsən, Lerik, Xızı, Saatlı, Tərtər, Ucar və Yardımlı rayonlarında statistika idarələri üçün yeni inzibati binaların tikintisi başa çatdırılmış, Sumqayıt və Mingəçevir şəhərlərində isə binaların tikintisinə başlanmışdır.